UOT: 902
https://doi.org/10.30546/3006-0346.2025.3.87.578

# FİZİKİ ZORAKILIĞIN BİOARXEOLOJİ ANALİZİ

**LAMİYƏ TOMAEVA**
*AMEA Arxeologiya və Antropologiya İnstitutunun Antropologiya şöbəsinin Fiziki Antropologiya laboratoriyasının kiçik elmi işçisi, doktorant*

*E-mail: l.habibova@student.uw.edu.pl*
*Orcid: 0000-0003-3713-6297*

Bioarxeologiya insan sümük qalıqlarını arxeoloji və mədəni kontekstlərdə öyrənən və antropologiya ilə arxeologiyanın kəsişməsində dayanan bir elm sahəsidir. Bu elm keçmiş cəmiyyətlərdə insanların hansı həyat tərzi sürdüklərini, necə yaşadıqlarını, hansı xəstəliklərə yoluxduqlarını və hansı səbəblərdən öldüklərini öyrənir. Bioarxeoloji yanaşma və təhlil sayəsində həm fərdin həyat tarixçəsi, həm də genişmiqyaslı sosial və sağlamlıq nümunələri təhlil olunur.

Bioarxeologiyanın əsas istiqamətlərindən biri də zorakılığın izlərini müəyyənləşdirmək və interpretasiya etməkdir. Bu elm keçmiş cəmiyyətlərin sosial rəftarlarının rekonstruksiya edilməsi üçün fiziki şiddət və konfliktlərin öyrənilməsində böyük əhəmiyyət daşıyır. Qədim insan sümükləri üzərində aparılan bioarxeoloji və ya osteoloji analizlər, travmatik yaraların müşahidə edilməsi, dəfn formaları, kontekstual məlumatlar keçmiş cəmiyyətlərdəki zorakılıq izlərinin forma və sosial mənalarını anlamağa kömək edən sübutlardır.

Bu məqalənin əsas məqsədi bioarxeoloji yanaşmalar vasitəsilə keçmiş cəmiyyətlərdə zorakılıq izlərinin necə aşkarlandığını, anlaşıldığını və şərh edildiyini nəzəri baxımdan təhlil etməkdir. Məqalədə həmçinin zorakılığın yalnız fiziki travmalarla məhdudlaşmadığını, eyni zamanda onun sosial, mədəni və struktur səviyyələrdə də təzahür etdiyi vurğulanır. Bioarxeoloji təhlillər göstərir ki, zorakılıq təkcə fərdlərarası qarşıdurmalarla deyil, həm də gender, status, etnik mənsubiyyət və iqtisadi bərabərsizlik kimi amillərlə də sıx bağlı olan bir aktdır. Bu çərçivədə məqalə zorakılığın bioarxeologiyada necə nəzəri çərçivəyə salındığını və interpretasiya edildiyini araşdırır.

## Material və metodlar

Bu tədqiqatda bioarxeoloji kontekstlərdə zorakılığın rolunu və təzahürlərini araşdırmaq üçün nəzəri yanaşmadan istifadə edilib. Məqalə skelet qalıqları və arxeoloji sübutlar vasitəsilə zorakılığın necə tanındığını, təsnif edildiyini və başa düşüldüyünü şərh etmək üçün mövcud ədəbiyyatı və nəzəri modelləri sintez edir. Zorakılıq, travma və paleopatologiyaya dair təməl araşdırmalar və son töhfələr bu tədqiqatın əsasını təşkil edir. Zorakılığın bioarxeoloji kontekstlərdə necə təyin edildiyi, tanındığı və şərh edildiyində təkrarlanan nümunələri müəyyən etmək üçün seçilmiş mənbələr tematik olaraq təhlil edilmişdir. Metodoloji problemlərə, travmanın mədəni şərhlərinə və keçmiş zorakılığın öyrənilməsində etik məsələlərə də diqqət yetirilmişdir. Nəzəri sintez olaraq, bu tədqiqat skelet materialının birbaşa təhlilini ehtiva etmir. Buna görə də şərhlər dərc edilmiş məlumatların keyfiyyətinə və həcminə və mövcud ədəbiyyatda mövcud olan nəzəri arqumentlərə əsaslanır.

## Zorakılıq nədir?

Zorakılıq qədimdən bəri insan sosial münasibətlərində əhəmiyyətli rol oynayıb və insan yaradılışının fundamental hissəsi olub. Bu akt insan orqanizmində, sümüklər üzərində iz buraxan, məqsədli və ya sistemli şəkildə həyata keçirilən fiziki güc tətbiqetmə aktı kimi başa düşülür [7, s. 3]. Şiddət özlüyündə bioloji və mədəni fenomen olduğuna görə bioarxeologiya bir disiplin olaraq bu aktı anlamağımızda köməkçi rol oynayır. Müşahidələr nəticəsində məlum olmuşdur ki, şiddətin daha çox fərdi konfliktlər, müharibələr, ritual qətllər və sosial bərabərsizliklə bağlı ola biləcək növləri insanlar arasında geniş yayılmışdır, lakin keçmiş populyasiyalardan əldə edilən maddi sübutların azlığı şiddətin əsas motivlərini və mədəni səbəblərini araşdırmağı qəlizləşdirir. Buna görə də gələcəkdə şiddətin müxtəlif aspektlərdən öyrənilməsinə böyük ehtiyac vardır.

Zorakılıq formaları müxtəlif kontekstlərdə təzahür edə bilər və əsasən aşağıdakı kateqoriyalarda qruplaşdırılır:

● İnterpersonal (fərdlərarası zorakılıq)

Bu növ zorakılıq fərdlər arasında baş verən qarşıdurmaları əhatə edir və bura əlbəyaxa döyüş, cinayət tərkibli hücumlar, ailədaxili zorakılıq və digər birbaşa fiziki aqressiya formaları daxildir. Bu cür zorakılıq bioarxeoloji cəhətdən, adətən, skelet üzərində aşkarlanan kəskin (məsələn, kəsik izləri), küt (məsələn, sınıqlar) və təkrarlanan travmalar vasitə-

silə müəyyən edilə bilər.

● Struktural zorakılıq

Bu növ zorakılıq fərdlərin və ya qrupların cəmiyyət daxilində sosial, iqtisadi və ya siyasi qeyri-bərabərlik səbəbilə uzunmüddətli zərər görməsinə səbəb olan şiddət formasıdır. Məsələn, yoxsulluq, qida çatışmazlığı, zəif qidalanma, sosial diskriminasiya və marginalizasiya nəticəsində yaranan sağlamlıq pozuntuları buraya aiddir və bioarxeoloji analizlərdə struktur zorakılığın izləri kimi qəbul edilə bilər [9, s. 2].

● Rituallaşdırılmış və ya simvolik zorakılıq

Şiddət həm də dini, ideoloji və ya mədəni mənalar daşıya bilər. Məsələn, insan qurbanvermə ayinləri, cəza tətbiqləri və ya ölüm sonrası bədənə edilən müdaxilələr (məsələn, kəllələrin kəsilməsi, bədənlərin parçalanması, kannibalizm və s.) bu kateqoriyaya aiddir. Bu cür zorakılığın izləri çox vaxt dəfn təcrübələrində və skelet qalıqlarında özünü göstərir. Ritual zorakılıq sosial-iqtisadi və siyasi normalar daxilində törədildiyinə görə həm də qəbul edilmiş və ya legitim şiddət adlanır [6, s. 32].

Bu növ şiddət zorakılığın yalnız fərdi travmalarla məhdudlaşmadığını, onun geniş sosial və mədəni çərçivədə başa düşülməsinin vacibliyini vurğulayır. Travmatik yaralar və patologiyaların mədəniyyətlə empririk bağını yaratmaqla keçmiş cəmiyyətlərdə güc, nəzarət, müqavimət və etno-sosial əlaqələr haqqında dərin məlumatlar əldə edilə bilər [7, s. 7].

## Müharibələr

Fiziki şiddətin ən yayılmış formalarından biri müharibədir. Müharibə gündəlik həyatın bir çox aspektinə təsirli izlər qoya biləcək məqsədli şiddət növüdür [3, s. 421]. Bioarxeoloji analizlər tarixöncəsi cəmiyyətlərdə müharibələrin kiçik həcmlidən irihəcmli qırğınlara qədər yayğın olduğuna dair sübutlar əldə etmişdir [6, s. 141].

Tarixöncəsi zamanlarda fərdlər və qruplar arasında baş vermiş müharibələrin başlıca motivlərini öyrənmək çətin ola bilər, həmçinin güc sahibi bir individualın müharibə motivi, digər icma üzvlərindən fərqli ola bilər. İnsan sümük qalıqları üzərində aparılan osteoloji analizlər zamanı müəyyən kriteriyalar istifadə edilməklə müharibə ilə bağlı ola biləcək şiddətin izlərinə rast gəlinir [7, s. 10]. Onlar aşağıdakılardır:

1) baş dərisinin soyulması ilə əlaqəli kraniumda kəsik izləri (bu, əsasən, intrapersonal (icma xarici şiddət) zamanı müşahidə olunur. Kəsik izləri iti və ya küt alətin uc hissəsindən əmələ gəlir);

2) başın kəsilməsi və parçalanmasının izləri;

3) kəllə sümüyünə küt qüvvə travması;

4) İtiucluqlu alətlərdən yaranan zədələri;

Baş dərisinin soyulması və ya zəfər kuboku götürmək kimi bilinən şiddət aktı ilə bağlı kəsik izləri, adətən kəllənin ətrafında çevrəvi olaraq, çox vaxt əzələlərin ən çox bağlandığı yerlərdə nazik, düz kəsiklərdən ibarətdir [7, s. 19]. Onların qalınlığı, uzunluğu və lokasiyaları fərqli ola bilər. Bununla yanaşı, dəri soyulması heç də həmişə sümükdə izlər buraxmır. Kəllənin ritualistik olaraq bədəndən ayrılması zamanı osipital sümükdə (kəllənin arxa hissəsi), alt çənədə və servikal onurğa sümüyündə, həmçinin uzun borulu sümüklərin bitişmə sonluqlarında dairəvi kəsik izlərinə rast gəlinir. Yaranın forması, kəllənin yerləşməsi və sağalmanın hansı dərəcədə olması bioarxeoloqlara imkan verir ki, zədənin təsadüfən yoxsa qəsdlə baş verdiyini, istifadə edilmiş silahı, həmçinin şiddətin icmadaxili, yoxsa icma xarici olduğunu müəyyən etsinlər.

## Əsirlik

Zorakılığın bir növü olan əsirlik populyasiyalara, mədəniyyətlərə, əsir götürülən şəxsin cinsinə, yaşına və həm də əsir götürənlə arasındakı şəxsi münasibətlərə görə böyük ölçüdə dəyişir. Bundan başqa, modern dünyadakı və keçmişdəki əsirlik anlayışı əsir götürülmüş şəxslərlə necə rəftar edildiyi baxımından da fərqlənir. Elitaya məxsus olmayan bir cəmiyyətdə əsir götürülmüş şəxsə rəftarla, hiyerarxik strukturlu elit cəmiyyətlərdə göstərilən rəftar dəyişkən ola bilir. Həmçinin əsirlik müddəti də tarixi periodlara görə dəyişir, belə ki, burada mədəni və cəmiyyətdaxili dinamikalar əsirliyin nə qədər uzun çəkə biləcəyini göstərən əsas faktorlardır. Bəzi əsirlər bir neçə saat əsirlikdə qaldığı halda, bəziləri qalan həyatları boyunca əsirlikdə yaşaya bilirlər [7, s.12].

Bir çox hallarda, dəfn olunan şəxslərin sosial-iqtisadi və siyasi statusları dəfnetmə adətlərindən, formalarından müşahidə edilə bilsə də, əsir götürülənlər üçün eyni metodu tətbiq etmək düzgün olmaz. Status eyni qrup daxilində olan şəxslərə aid edildiyi halda, əsirlər əsir götürüldüyü qrup üçün qrup xarici fərdlər hesab edilirlər, buna görə də, dəfnetməyə görə onların aşağı və ya yuxarı statuslu olduğunu söyləmək bir qədər çətindir.

## Kannibalizm

Bəşər tarixinin bütün xronoloji dövrlərində rast gəlinən kannibalizmin ümumi fikir və müzakirələri

arxeoloji və antropoloji spektr vasitəsilə müxtəlif və mübahisəli şərhlər almışdır. Müasir "kannibal" və "kannibalizm" adları öz mənşəyini "Karib" sözündən götürmüşdür, bu ad İspan dilindən səhv tələffüz yolu ilə "Kanib"ə və nəhayət, "cannibal"a çevrilmişdir. “Adamyeyən” sözü ilk dəfə 1492-ci ilin noyabrında Xristofer Kolumbun gündəliklərinə əsasən Avropa leksikonunun bir hissəsi olmuşdur.

Kolonializm çağının başlaması ilə birlikdə, kannibalizm də tədricən kolonial yeni dünyada şiddətin bir növü olaraq görülməyə və qəbul edilməyə başladı. Bunun başlıca səbəbi isə Avropadan kənarda kannibalizmlə məşğul olan tayfaların Avropa dünya görüşünə olduqca yad olması və onların “barbar”, “geridəqalmış” və “idarə edilməyə möhtac” populyasiyalar olaraq görülməsi idi [1, s. 451].

Bioarxeologiyada insan sümükləri üzərində kannibalizm izləri aşağıdakı əlamətlərlə müəyyən edilə bilər [2, s.161]:

1) Fəqərələrin yoxluğu - sümük iliyi və yağı çıxarmaq üçün əzilmə və ya sümüyün qaynadılması səbəbiylə;

2) Uzun sümüklərdə qırılma izləri - sümük iliyini xaric etmək üçün;

3) Bütöv qorunmuş skeletlərdə kranial kəllə bazasının olmaması - beyinin xaric edilməsi üçün;

4) Sümük səthinə iti daşla vurulma nəticəsində yaranan dərin, geniş V formalı çapıqlar, kəsik və doğranma izləri [7, s. 20].

Yuxarıda sadalanan izlər tarixöncəsi zamanlardan etibarən dünyanın müxtəlif yerlərindən əldə edilən insan sümük qalıntıları üzərində rast gəlinib. Belə yerlərdən İspaniyada Tunc dövrü mağarası olan El-Mirador, Fransada Neolit dövrü mağarası Papua-Yeni Qvineya, Fici və digər əraziləri göstərmək olar. Bununla belə, bir çox tədqiqatçılar bu izlərin belə kannibalizmi sübut etmək üçün kifayət etmədiyini və əslində, bunu sübut edəcək heç bir iz olmadığını dəstəkləyirlər. Başlıca səbəb, eyni travma izlərinin başqa şiddət növləri ilə də əlaqələndirilə biləcəyidir, məsələn, sümükdə rast gəlinən diş izləri heyvanlara da aid ola bilər, və ya digər tafonomik izlər nəticəsində meydana gəlmiş ola bilər.

## Bioarxeoloji metodlar

Fiziki antropoloqlar skelet analizi zamanı zorakılığı interpretasiya edə bilmək üçün biomədəni yanaşmadan istifadə edirlər. Bunun üçün əvvəlcə mövcud faktiki data, yəni skelet üzərində analiz aparılır, daha sonra material kulturanın, sosial, etnomədəni-iqtisadi ətraf-mühitin və dəfnetmə xüsusiyyətlərinin rekonstruksiyası yaradılır və sonra isə etnoqrafik mənbələrə müraciət edilməklə hipotezlərin dəyərləndirilməsinə başlanılır [7, s.2-4].

Skelet analizi zamanı travma və şiddət izləri, həmçinin zərbə varsa, hansı kateqoriyaya aid edildiyi müəyyən edilir (iti və ya küt alətlə baş verməsi). Digər mühüm məsələ tafonomik dəyişikliklərin nəzərə alınmasıdır [10, s. 36]. Yəni travmanın ante-mortem (ölümdən öncə), peri-mortem (ölüm zamanı və ya ölməyə səbəb amil) yoxsa post-mortem (ölümdən sonra) yarandığını müəyyən etmək vacibdir [8, s. 4-5]. Digər analiz metodları kimi izotop analizi, radioqrafik şəkilləndirmə, məhkəmə-patoloji yanaşmalardan da istifadə etmək olar [7, s. 9].

## Çətinliklər və etik yanaşmalar

Zorakılıq izlərini bioarxeoloji təhlil etməyin ən yaxşı üsullarından biri də onu arxeoloji yaşayış məskənindən gələn birbaşa data ilə birlikdə öyrənməkdir, çünki yalnızca sümüklər üzərində travmaların analiz edilməsi şiddətin necə və nə üçün baş verməsi ilə bağlı məhdud məlumatlar verə bilər, həmçinin, bir-birinə oxşar yaralarla nəticələnən izlərin ayırd edilməsi də osteoloi olaraq xeyli çətinliklər yarada bilər. Məsələn, ölümcül zərbə ilə müqayisədə ölümcül olmayan zərbənin analiz edilməsində çətinlik burasındadır ki, sağalmış travma izləri interpretasiya zamanı müxtəlif faktorlar səbəbindən mübahisələr doğura bilər [7, s. 3]. Əlbəyaxa döyüş, məişət bullinqi və yaxud da fərdin uzunmüddətli şiddətə məruz qalmağı bənzər nəticələrlə sonlana bilər.

Həmçinin torpaq altında baş verən kimyəvi proseslər, torpağın skeletə təzyiqindən yaranan dəyişikliklər, yırtıcı heyvanlar tərəfindən sümüklərdə görünən dəyişikliklər də zorakılın dəqiq interpretasiyasını çətinləşdirə bilər.

İnsan sümükləri üzərindən zorakılığın bioarxeoloji interpretasiyası zamanı mövcud tarixi periodun mədəni və etik dəyərlərini göz ardı etməmək ən vacib məsələlərdən biridir. İlk olaraq, insan sümüklərinə istər toxunarkən, istər nümayiş etdirərkən və ya nəşr etdirərkən hörmət və ehtiramla yanaşılmalıdır [7, s. 21]. Əgər mümkündürsə, yerli icmalarla danışılmalı və zorakılıq adlandırılacaq aktı şərh etməzdən öncə onların mədəni perspektivlərinə hörmətlə yanaşılmalıdır. Bu hal, əsasən, kannibalizm aktı zamanı müəyyən populyasiyaların sosial-mədəni yaşayış və inanc tərzində özünü büruzə verir. Son olaraq isə şərh edən zaman sensasiya məqsədi daşımayan, yalnızca elmi faktlara və yanaşmalara əsaslanan açıqlamalar verilməlidir.

### Nəticə

Bu tədqiqat keçmiş populyasiyalardakı zorakılığın bioarxeoloji yanaşmalar vasitəsilə necə müəyyən edilə, şərh oluna və kontekstləşdirilə biləcəyini araşdırdı. Skelet travma nümunələrini təhlil edərək və onların tapıldığı mədəni və arxeoloji kontekstləri nəzərə alaraq, bioarxeoloqlar keçmişdə fərdlərin və icmaların yaşanmış təcrübələri haqqında dəyərli fikirlər əldə edirlər. Fərdlərarası zorakılıqdan struktur və ritual zorakılığına qədər – insan cəmiyyətlərində zorakılığın müxtəlif təzahürləri və motivlərini vurğulanaraq bu zorakılıq formalarının təkcə fiziki deyil, həm də sosial, siyasi və ideoloji strukturlarda dərin kök saldığına nəzər salınmışdır. Həmçinin, tədqiqatda zorakılığın şərh edilməsində yarana biləcək metodoloji çətinliklər və etik mülahizələr də vurğulanır. Travmaların qeyri-müəyyənliyi, tafonomik dəyişikliklər və insan qalıqlarına münasibətdə mədəni həssaslıq kimi məsələlərə də nəzər salınır.

### ƏDƏBİYYAT SİYAHISI:

*1. Axtell J., Sturtevant C. W. The Unkindest Cut or Who Invented Scalping? Jstor, Vol 37, No. 3, 1980, p.451-472.*

*2. Billman R. B., Lambert M. P., Leonard L. B. Cannibalism, Warfare, and Drought in the Mese Verda Region During the Twelve Century A.D, American Antiquity, 65(1), Cambridge University Press, 2000, pp. 145-178.*

*3. Durrant R. Collective violence: An evolutionary perspective, Aggression and Violent Behavior, Vol 16, Issue 5, 2011, p.428-436.*

*4. Farmer P. An Anthropology of Structural Violence, Current Anthropology Vol 45, No. 3, 2004, p. 305-325.*

*5. Martin D., Osterholt A. A Bioarchaeology of Captivity, Slavery, Bondage and Torture, New Directions in Bioarchaeology, Part II, Vol.12, No.3, 2012, The SAA Archaeological Record, p.32-34.*

*6. Martin D., Harrod R., Pérez R. V. (eds.). The Bioarchaeology of Violence, Gainesville, University of Florida Press, 2012.*

*7. Martin D., Harrod R. Bioarchaeological Contributions to the Study of Violence, Yearbook of Physichal Anthropology, Wiley Periodicals, INC, 2014, p.1-30.*

*8. Mol G. C., Sealy J.,Stynder D. D., Le Roux J.P., Gibbon E. V. Bioarchaeology and evidence of violence from a precolonial later stone age communal burial in South Africa, PLOS ONE, p.1-28.*

*9. Nystrom C. K. The Bioarchaeology of Structural Violence and Dissection in the 19th-Century United States, American Anthropologist, Vol. 116, No. 4, 22014, pp. 1–15.*

*10. Pérez R. V. The Bioarchaeology of Violence. Infusing Method with Theory, New Directions in Bioarchaeology, Part II, Vol.12, No.3, 2012, The SAA Archaeological Record, p.35-38.*

**TOMAEVA LAMIYA**

**Physical Anthropology laboratory of the Anthropology department of the Institute of Archaeology and Anthropology of ANAS, junior researcher, PhD candidate**

### Bioarchaeological analysis of physical violence

**SUMMARY**

The article discusses how the concept of physical violence in past populations can be identified through bioarchaeological approaches by analysing human skeletal remains. It also examines the role of bioarchaeology in the reconstruction and interpretation of physical violence. Several types of violence are theoretically analysed from a bioarchaeological perspective, and their connections to socio-cultural and political causes are explored. Additionally, the article addresses the potential challenges and misinterpretations that may arise during the bioarchaeological interpretation of violence.

**Key words:** *violence, cruelty, wars, bioarchaeology, skeletal trauma, cannibalism.*

**XÜLASƏ**

Məqalədə insan sümük qalıqları üzərində keçmiş populyasiyalarda fiziki şiddət anlayışının bioarxeoloji yanaşmalar vasitəsilə aşkara çıxarılmasından bəhs edilir. Həmçinin bioarxeologiyanın fiziki şiddətin rekonstruksiya və şərh edilməsindəki rolundan da danışılır. Burada şiddətin bir neçə növü bioarxeoloji aspektdən nəzəri olaraq təhlil edilir və onun sosial-mədəni və siyasi səbəblərlə olan əlaqələrinə nəzər salınır. Bundan başqa, zorakılığın bioarxeoloji yanaşmalarla şərh edilməsi zamanı meydana çıxa biləcək çətinliklər və yanılmalara da nəzər salınır.

**Açar sözlər:** *zorakılıq, şiddət, müharibələr, bioarxeologiya, skelet travması, kannibalizm.*